# Qələbələrimiz artdıqca tərəfdarlarımız da çoxalacaq

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova Ermənistan silahlı qüvvələrinin Gəncədə mülki əhalini bir neçə dəfə uzaqvuran raketlərlə hədəfə alması ilə bağlı qəzetimizə açıqlamasında işğalçı dövlətin müharibə cinayətləri, düşmən rəhbərliyinin 23 insanın ölümü, 72 nəfərin yaralanması ilə nəticələnmiş soyqırımı əməllərini kəskin ittiham etdi. Komitə sədri imperialist dairələrin oyuncağına çevrilmiş təcavüzkar Ermənistan dövlətinin yüksək çinli hərbçilərinin döyüşlər başlamamışdan əvvəl ölkəmizin cəbhə bölgəsindən uzaqda yerləşən, strtarteji əhəmiyyətli Gəncə və Mingəçevir şəhərlərini raketlərlə vuracaqları ilə hədələmələri faktını xatırladaraq dedi:**

– Birmənalı olaraq söyləmək lazımdır ki, qabaqcadan planlaşdırılmış bu vandallıq aksiyası – döyüş meydanından xeyli kənarda yerləşən, Ermənistan üçün heç bir hərbi təhlükə törətməyən Gəncə və Mincəçevir şəhərlərinin bir neçə dəfə ballistik raketlərlə atəşə tutulması insanlıq əleyhinə qəddar cinayətdir. Ermənilərin bu vəhşilik aksiyasını törətməkdə məqsədi, arxa cəbhədə çaxnaşma və təşviş yaratmaq idi. Onlar bu hədəflərinə çatmadılar, əksinə, xalqımızın erməni işğalçılarına olan nifrətini son həddədək körüklədilər, dünyanın ədalətli, namuslu insanlarının gözündə isə cinayətkar və təcavüzkar xislətlərini növbəti dəfə sübut etdilər. Gəncəyə gecəyarısı edilən sonuncu raket hücumu 5 minlik tarixi ilə bəşəri dəyər qazanmış yarım milyon əhalisi olan şəhərimizə, onun dinc sakinlərinə qarşı Emənistan tərəfindən gerçəkləşdirilən kütləvi terror aktı, açıq hərbi cinayətdir. Bu həm də 28 il əvvəl Xocalıda törədilmiş müdhiş soyqırımının davamıdır.

İşğalçı Ermənistanın məğlubiyyətdən yaxa qurtarmaq üçün təşkil etdiyi bu quduz hücumlar beynəlxalq hüquqa, Cenevrə Konvensiyasının müddəalarına zidd əməllərdir. Ermənistanın insanlıq əleyhinə cinayətlər törətməkdən çəkinməməsi isə beynəlxalq birliyin onları uzun müddət belə cinayətlərə görə cəzasız buraxmasının nəticədidir. Davamlı olaraq törətdikəri vəhşi soyqırımlarına, heç bir çərçivə tanımayan vandalizm aktlarına dünya ictimaiyyətinin susqunluğu ermənilərə yenə cəzasız qalacaqlarını təlqin etmişdir.

Lakin Azərbaycan dövləti bu cinayətlərin qarşısının alınması və müharibə canilərinin müəyyən edilib cəzalandırılması üçün lazım olan bütün addımları atır. Müvafiq qurumlar öz səlahiyyətləri çərçivəsində şəraiti dəyərləndirir, sənədləşdirir, beynəlxalq ictimaiyyət ardıcıl məlumatlandırılır. Komitəmiz də müvafiq beynəlxalq təşkilatlara öz müraciətini ünvanlayıb. Digər ölkələrdəki uyğun dövlət orqanlarına və tərəfdaşlarımıza da lazımi məlumatları müntəzəm olaraq çatdırırıq.

Bu günlərdə UNİCEF-in Avropa və Asiya ölkələri üzrə regional direktoru ilə keçirdiyimiz onlayn görüşdə də mövqeyimizi, fikirlərimizi onlara qətiyyətlə bildirdik. BMT-nin və UNİCEF-in Azərbaycandakı nümayəndələri ilə üzbəüz görüşdə isə ətraflı fikir mübadiləsi apardıq, tələblərimizi səsləndirdik. İtaliyada, Almaniyada, Türkiyədə, Qazaxıstanda, Ukraynada və digər ölkələrdə şəxsən tanıdığım parlamentarilər var ki, onlar məsələyə ədalətli yanaşırlar. Əlaqə qurduğumuz qurumlardan və hər kəsdən beynəlxalq hüquqa hörmətini bildirmələrini istəyirik. Çünki bizim mövqeyimiz, məhz bu normalara əsaslanır. Bu dəyərləri qəbul edənlər obyektiv mövqe göstərirlər. Artıq Ermənistanı açıq şəkildə dəstəkləmək, onların beynəlxalq hüququ tapdalamaqlarına göz



da, bir qayda olaraq, fərqli cərəyanların, siyasi təşkilatların nümayəndələrindən ibarət olur. Tərkib də davamlı olaraq dəyişir.

Bundan əlavə, ayrı-ayrı ölkələrin hökumətlər, prezidentlər səviyyəsində qəbul etdiyi sənədlər də var ki, onlar da BMT-nin dörd qətnaməsi kimi önəmli və əsaslıdır. Bunların yerinə yetirilməsi təmin olunmalıdır. Bu gün Azərbaycan bu sənədlərdə əksini tapan şərtlərin reallaşdırılması ilə – işğalçı Ermənistanın qoşunlarını və kənar qüvvələrini Azərbaycan ərazisindən vurub çıxarmaqla məşğuldur. O ki, qaldı bölgədəki kəskin hərbi-siyasi böhrana verilən beynəlxalq reaksiyalara, münasibətlər müxtəlifdir. Qardaş Türkiyə və dost Pakistandan başqa ədalətli mövqeyini açıq ifadə edən yoxdur. Lakin elə qüvvələr və ölkələr var ki, onların susmağının özü də faydasız deyil.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova açıqlamasının sonunda əminliklə bildirdi ki, Azərbaycan Cəbrayılın, Füzulini, Hadrutun azad edilməsi kimi uğurların artırdıqca, tərəfdarlarımız da da çoxalır: "Çünki biz haqqımız olanı – əzəli və qanuni torpaqlarımızı geri qaytarırıq, ədaləti bərpa edirik. Beynəlxalq hüququn bərqərar olmasına canımızla, qanımızla töhfə veririk. Ötən illər ərzində səngərlərdə, döyüş şəraitində formalaşaraq regionun ən güclü ordusuna çevrilən silahlı qüvvələrimizin xalqımıza aşıladığı güvən hissi olmasaydı, biz çətin və ağır döyüşlərdə ardıcıl qələbə qazana bilməzdik. Deməli, bu prosesdə iştirak



yummaq çətindir. Odur ki, bu ölkəni müdafiə xarakterli çıxışlar da azalmaqdadır.

Beynəlxaq qurumların, ermənipərəst dövlətlərin, bütövlükdə, Dağlıq Qarabağ münaqişəsinə ikili standartlar mövqeyindən yanaşdığını vurğulayan Bahar Muradova onların indiki döyüş əməliyyatları zamanı da işğalçı qüvvələrin ölkəmizin dinc əhalisini hədəfə almasına lazımi qiymət vermədiklərini bildirdi:

– Beynəlxalq təşkilatlarda hansısa bir sənədi qəbul etdirmək həm ölkələrin mövqeyi, həm də prosedur baxımından vaxt və ardıcıl səylər tələb edir. Hər hansı sənəd müzakirəyə təqdim olunanda müxtəlif mövqelər ortaya çıxır. Kimlərsə açıq-aşkar cinayətkarı müdafiə edir, başqası tamam əks mövqe göstərir. Beynəlxalq aləmdə birmənalı mövqeyi olan ölkələr, təəssüf ki, çox azdır. Avropanın müxtəlif birliklərinin parlament assambleyaları

edən bütün tərəflər qalibdir. Ona görə də bu gün uşaqdan-böyüyə hər kəs "Qarabağ Azərbaycandır!" şüarı ətrafında birləşməyin bəhrələrini görür.

Azərbaycan bayrağı bir-birinin ardınca işğaldan azad edilən şəhər və kəndlərimizdə dalğalanmaqdadır. Bu günə inandığımıza və məqsədə doğru birgə addımladığımız bir daha sübur edir ki, xalqımız mübariz, vətənpərvər, cəsarətli və qəhrəman övladlar yetişdirə bilmişdir. Buna görə də artıq düşmən əsgərləri silahlarını atıb qaçırlar. Erməni quldur ordusunun tör-töküntüləri məğlubiyyətə məhkumluqları ilə artıq bilirlər ki, tezliklə tamamilə tərk edəcəkləri bu torpaqlar onların deyil, Azərbaycanındır. Qarabağ Azərbaycandır!".

***Hazırladı: R.TAHİR,***
***"Xalq qəzeti"***